**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ORUC İSLAM oğlu QULİYEV**

# "MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA ŞƏHƏR ƏHALİSİNƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİ" (Bakı, Gəncə və Naxçıvan kütləvi kitabxanalarının iş təcrübəsi əsasında)"

**3356.01-Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının**

**A V T O R E F E R A T I**

**Bakı-2018**

Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Xəlil İsmayıl oğlu İsmayılov**
tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponetlər:** **Məryəm Həsən qızı Seyidbəyli**
tarix üzrə elmlər doktoru

**Cavid Ağalar oğlu Cəfərov**
tarix üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **AMEA Milli Azərbaycan Tarixi Muzeyinin "Xarici əlaqələr və elmi kütləvi iş" şöbəsi**

Dissertasiya işinin müdafiəsi ____ __________2018-ci il tarixində saat $11^{00-}$ da Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148. Bakı şəhəri, İstiqlaliyyət küçəsi 26.

Dissertasiya ilə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat ____may 2018-ci ildə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya**
**Şurasının Elmi katibi**
**fəl. ü. e. dok., dosent:** **Z.A.Əbilova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

Müasir dövrdə respublikamızda regionların sosial-iqtisadi inkişafına dair dövlət səviyyəli tədbirlərin görülməsi, mühüm qərarların qəbulu əhalinin yaşayış səviyyəsinin yaxşılaşmasına səbəb olmuşdur. Respublikanın bütün regionlarının iqtisadi və sosial inkişafını daha da yüksəltmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) təsdiq edilməsi haqqında 11 fevral 2004-cü ildə[1] və 2009-cu il 14 aprel tarixinində "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı[2] və 27 fevral 2014-cü il tarixində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı[3] imzalamışdır. Dövlət proqramlarının əsas məqsədi respublikanın daxili inzibati və iqtisadi rayonlarında olan mövcud potensialdan, dövlət büdcəsindən və müxtəlif mənbələrdən ayrılan maliyyə vəsaitlərindən istifadə etməklə ayrı-ayrı iqtisadi sahələrin inkişafını təmin etməkdən ibarətdir. Bu məqsədlə respublikanın on iqtisadi rayonunda-Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Aran, Lənkəran-Astara və Naxçıvan iqtisadi rayonlarının sosial-iqtisadi inkişafını təmin etmək üçün rayonlardaxili və rayonlararası istehsal və iqtisadi əlaqələrin təkmilləşdirilməsinə dair proqram hazırlanmışdır[4].

Azərbaycan dövləti bütün sahələrin inkişafı ilə bərabər, ölkədə kitabxanaların inkişafına önəm verir. Bu baxımdan müasir dövrdə kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri qarşısında duran prioritet istiqamətlərdən biri ölkə əhalisinin müxtəlif təbəqələrinə kitabxana-informasiya xidmətinin yeni forma və metodlarının araşdırılması, yeni xidmət üsullarının müəyyən edilməsi və kitabxana-informasiya sistemlərinin hazırkı durumunun təhlili əsasında şəhər əhalisinin kitabxana-informasiya

---

[1]Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər)"//Azərbaycan, 2004, 11 fevral.

[2]Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı". Bakı: "Nurlar", 2009, 184 s.

[3]Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 27 fevral. 014. http://president.az/articles/11089

[4] Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı: "Elm", 2007, 465 s.

təminatının təkmilləşdirilməsinin yollarının müəyyən edilməsidir. Bu vəzifələrin yerinə yetirilməsində kütləvi kitabxana şəbəkəsi mühüm yer tutur. Kütləvi kitabxanalar Azərbaycan mədəniyyətinin atributu kimi formalaşmış, əhalinin informasiya təminatının mərkəzlərindən biri kimi mühüm işlər görürlər. Bu baxımdan şəhərlərdə yerləşən kütləvi kitabxanaların informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun fəaliyyətinin araşdırılması və elmi dövriyyəyə gətirilməsi aktuallıq kəsb edir. **“Müstəqillik illərində Azərbaycan Respublikasında şəhər əhalisinə kitabxana-informasiya xidməti”(Bakı, Gəncə və Naxçıvan kütləvi kitabxanalarının iş təcrübəsi əsasında)”**adlanan bu dissertasiya işinin qarşısında duran əsas məqsəd Azərbaycan Respublikasının ən iri şəhərlərindən olan Bakı, Gəncə və Naxçıvan şəhər əhalisinin kitabxana-informasiya təminatının təşkilinin və müasir vəziyyətinin araşdırılmasıdır.

**Tədqiqatın aktuallığını şərtləndirən əsas amillər aşağıdakılardır:**

1.Ölkənin iri şəhərlərinin kitabxana-informasiya infrastrukturunun tarazlı inkişaf proqramının hazırlanması və həyata keçirilməsi zərurəti;

2.Azərbaycan Respublikasının iri şəhərlərindən olan Bakı, Gəncə və Naxçıvanın kütləvi kitabxana-informasiya sahəsində regional xüsusiyyətlərin tədqiq edilib, nəticələrin ümumiləşdirilməsi;

3.Şəhər əhalisinə kitabxana-informasiya xidmətinin nəzəri və metodoloji əsaslarının işlənib hazırlanmasının vacibliyi;

4.Respublikanın iri şəhərlərində kütləvi kitabxana-informasiya resurslarının formalaşmasına təsir edən amillərin tədqiq edilməsi zərurəti;

5.Ölkənin ən iri şəhərlərinin kütləvi kitabxana-informasiya sisteminin müstəqillik illərində respublikanın kitabxana-informasiya infrastrukturuna verdiyi töhfələri öyrənib ümumiləşdirmək əsasında müvafiq sahə üzrə layihənin işlənib hazırlanması.

**Problemin öyrənilmə səviyyəsi.** Problemin mənbəşünaslığının tədqiqi göstərir ki,“Müstəqillik illərində şəhər əhalisinə kitabxana-informasiya xidməti (Bakı, Gəncə və Naxçıvan kütləvi kitabxanalarının iş təcrübəsi əsasında)” mövzusunun ayrı-ayrı aspektlərinə görkəmli alim və tədqiqatçıların sanballı elmi əsərlərində qismən toxunulsa da, sahə üzrə müstəqil tədqiqat aparılmamışdır. Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Əməkdar elm xadimi, professor A.Xələfovun zəngin elmi yaradıcılığında[1], professor X.İsmayılovun “Azərbaycan Res-

---

[1] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (3 hissədə). H.3. Bakı, 2010, 431s.;Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə. Bakı, Bakı Universiteti nəşriyyatı, 2007, 552 s.; Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı. “Azərnəşr”,

publikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi" adlı monoqrafiyasında və bir sıra elmi məqalələrində [1], professor Z.Əliyevin bir sıra elmi əsərlərində[2], dosent N.İ.İsmayılovun elmi yaradıcılığında[3] bu problemin ayrı-ayrı aspektləri öz əksini tapmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində Azərbaycan Respublikasının Bakı, Gəncə,Naxçıvan iqtisadi rayonlarının sosial-iqtisadi

---

2006, 312 s.; İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal,2005, №2, s.10-18; Kitabxanaşünaslığa giriş: Dərslik (3 hissədə). H.3. Bakı, 2003, 314 s.; Kitabxanaşünaslığa giriş: Dərslik 3 hissədə.I və II hissə. Bakı, 2001, 398 s;Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. I hissə. Bakı, 2004, 326 s.; Azərbaycanda ali kitabxanaçılıq təhsili.Bakı: Bakı Universiteti Nəşriyyatı,1998,130 s.; Müasir kitabxanaların sosial funksiyaları//Kitabxanaşünasılq və biblioqrafiya: Elmi, nəzəri və təcrübi jurnal.1999, №2, s.3-32.

[1] İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi: Dərslik. Bakı: Nurlar, 2009, 392 s.; Azərbaycan Respublikasında regionların kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə-Qazax iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi nəzəri, metodiki və təcrübi jurnal. 2009, № 1, s. 99-112; Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bur.7, Bakı: "Mütərcim", 2007, s. 318-320; Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. Bakı, 2000, 440 s.; Kitabxana menecmentinin əsaslari (dərs vəsaiti). Bakı, 2005, 199 s.

[2] Əliyev Z.H. Biblioqrafik informasiya sənəd informasiya tələbatının ödənilməsində mühüm vasitədir // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.2004, №1,s.82-87; Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodikivə təcrübi jurnal. 2009, №1, s.91-98; Müasir dövrdə Azərbaycanda elmi-tədqiqat işçiləri və mütəxəssislərin biblioqrafik təminatının əsas istiqamətləri // Azərbaycanda elmi-işçilərə kitabxana-biblioqrafiya xidməti: Tematik məcmuə. Bakı: ADU, 1985, S.19-25; Ümumi biblioqrafiyaşünaslıq (dərs vəsaiti). Bakı, 2001, 144 s.

[3] İsmayılov N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal. 1999, №1, s. 94-100; Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı: vəziyyəti, problemləri, perspektivləri// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. 1998, №2, s. 81-89; Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. 2010, №1, s. 67-78;Naxçıvan iqtisadi rayonunda kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti //Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal. 2011, № 2, s. 100-111; Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi/Elmi red.: Z.H.Əliyev. Bakı, "Mütərcim", 2003, 111 s.; Regionların sosial-iqtisadi inkişafının informasiya təminatı həyata keçirilir // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi nəzəri, metodiki və təcrübi jurnal. 2009, № 1, s. 99-112.

inkişafının kitabxana-biblioqrafik informasiya təminatının infrastrukturunu tədqiq etmək, əhalinin kitabxana-biblioqrafik informasiya təminatının vəziyyətini və mövcud kütləvi kitabxana-biblioqrafik informasiya resurslarından müasir dövrün tələbləri kontekstində səmərəli istifadəsinin yollarını müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın məqsədi aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsini zərurət kimi qarşıya qoymuşdur:**

1. Azərbaycanın iri şəhərlərindən Bakı, Gəncə,Naxçıvan şəhərlərinin sosial-iqtisadi inkişafının müasir vəziyyətinin araşdırılması.

2.Bakı, Gəncə, Naxçıvan şəhərlərində kütləvi kitabxana-informasiya və biblioqrafik resurslarının yerləşməsinin vəziyyətinin araşdırılması və öyrənilməsi.

3.Müasir dövrdə tədqiqat obyekti olan iri şəhərlərdə kütləvi kitabxana-biblioqrafik və informasiya ehtiyatlarının inkişaf istiqamətlərinin və ondan səmərəli istifadənin yollarının müəyyənləşdirilməsi.

4.Azərbaycanın iri şəhərlərindən Bakı, Gəncə,Naxçıvan şəhərlərində əhaliyə kütləvi kitabxana-informasiya xidmətinin müasir vəziyyətinin araşdırılması.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasının Bakı, Gəncə, Naxçıvan şəhərlərinin kütləvi kitabxana-informasiya infrastrukturu təşkil edir.

**Tədqiqatın predmetini** Azərbaycan Respublikasının Bakı, Gəncə, Naxçıvan şəhərlərinin kütləvi kitabxanalarında informasiya resurslarının yerləşməsi, istifadəsi və xidmət problemləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Tədqiqatın nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının Konstitusiyası, informasiya texnologiyaları və kitabxana işi haqqında dövlət qanunları, kitabxanaşünaslıq və biblioqrafiiyaşünaslıq sahəsində aparılmış tədqiqatlar, kitabxanaşünas və biblioqrafiyaşünas alimlərin zəngin təcrübəsi nəticəsində meydana çıxan elmi-tədqiqat işlərinin tövsiyələri təşkil edir.

**Tədqiqatın metodları.** Dissertasiya işinin elmi dövriyyəyə gətirilməsində müxtəlif kompleks metodlardan istifadə edilmişdir. Tədqiqat zamanı araşdırılan problemlərə dair nəzəri mənbələrin öyrənilməsinə və təhlilinə, həmçinin uzunmüddətli müşahidələrin nəticələrinə diqqət yetirilmiş, Bakı, Gəncə, Naxçıvan şəhərlərinin kütləvi kitabxanalarının hesabat və statistik sənədləri təhlil edilmiş, bu zaman sistemli yanaşma metodu əsas götürülmüşdür. Tədqiqat aparılan şəhərlərin kütləvi kitabxanalarının iş təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, informasiya

tələbatçıları ilə söhbətlərin, müsahibələrin keçirilməsi metodlarına da müraciət olunmuş, kitabxanaların saytlarının monotorinqi aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi aşağıdakı amillərlə səciyyələnir:

-Dissertasiya işi Azərbaycan Respublikasının Bakı, Gəncə, Naxçıvan şəhər əhalisinə kitabxana-informasiya xidmətinin təşkili məsələlərini arxiv sənədləri, faktiki, statistik və İnternet materiallarının elmi dövriyyəyə daxil edilməsi əsasında araşdıran ilk elmi tədqiqat əsəridir.

-Dissertasiya işi Bakı,Gəncə və Naxçıvan şəhər əhalisinin kitabxana informasiya təminatı sistemini müəyyən edən ilk elmi tədqiqat əsəridir.

-Dissertasiya işi Azərbaycan Respublikasının Bakı, Gəncə, Naxçıvan şəhərlərinin kütləvi kitabxana-informasiya təminatı sisteminin infrastrukturunu araşdıran ilk elmi tədqiqat əsəridir.

-Elmi-tədqiqat əsəri Bakı, Gəncə və Naxçıvan şəhərlərinin kütləvi kitabxana –informasiya təminatı sisteminin yerləşməsi vəziyyətini müəyyən edən ilk elmi tədqiqat əsəridir.

-Dissertasiya işində ilk dəfə olaraq müstəqillik illərində Bakı, Gəncə və Naxçıvan şəhərlərinin kütləvi kitabxana-informasiya resurslarının ümumi səciyyəsi verilmiş və müasir vəziyyəti araşdırılmışdır.

-Dissertasiya işində ilk dəfə olaraq Bakı, Gəncə və Naxçıvan kütləvi kitabxanalarının kadr təminatı tədqiqata cəlb olunmuş, öyrənilmiş və bu sahədə mövcud problemlər müəyyənləşdirilmiş və həlli yolları göstərilmişdir.

-Elmi-tədqiqat işində respublikanın ən iri şəhərlərinin kütləvi kitabxana-informasiya ehtiyatları müqayisəli təhlil olunmuş və kitabxana-biblioqrafik xidmətdə üstün və fərqli cəhətlər müəyyənləşdirilmişdir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işinin nəticələrindən Azərbaycan Respublikasının Bakı, Gəncə və Naxçıvan şəhərlərinin kütləvi kitabxanalarının əhaliyə göstərilən kitabxana-informasiya xidmətinin səmərəli təşkilində, ali kitabxanaçılıq təhsilinin bakalavr pilləsinin əyani və qiyabi şöbələrində tədris olunan "Kitabxana xidməti" və "Regionların kitabxana-informasiya təminatı sistemi" adlı fənlərinin tədrisində istifadə oluna bilər. Tədqiqatla bağlı müəllifin biri xaricdə olmaqla 8 məqaləsi, o cümlədən biri xaricdə olmaqla 4 tezisi dərc edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi:** Dissertasiya giriş, 3 fəsil, 7 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyatın biblioqrafik siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın aktuallığını şərtləndirən əsas amillər, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, nəzəri-metodoloji əsasları, tədqiqat metodları, elmi yeniliyi, elmi təcrübi əhəmiyyəti, aprobasiyası haqqında məlumat verilmişdir. Dissertasiya işinin **I fəsli "Şəhər əhalisinin kitabxana-informasiya təminatı sisteminin müasir vəziyyəti**" adlanır. Fəslin"**Şəhər əhalisinin kitabxana-informasiya təminatı sisteminin infrastrukturu"** adlanan birinci yarımfəslində qeyd olunur ki, 1985-1990-cı illərdə cəmiyyətdə baş verən sosial-iqtisadi, siyasi dəyişikliklər, bazar iqtisadiyyatına keçid dövrü ilə əlaqədar olaraq kitabxanalara dövlət nəzarəti zəiflədi. XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə baş verən hadisələr, erməni təcavüzü kitabxanaları bağlanmaq təhlükəsi ilə qarşı-qarşıya qoydu.Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi Azərbaycan dövlətçiliyini xilas etdiyi kimi Azərbaycan kitabxanalarını da məhv edilməkdən qorudu. Xüsusilə dövlətimizin başçısı, hörmətli Prezidentimiz İlham Əliyev cənabları "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə 6 oktyabr 2008-ci ildə sərəncam imzaladı.[1] Həmin sərəncamda kitabxanaların maddi-texniki imkanlarından istifadə etməklə məqsədli, sistemli şəkildə inkişaf etdirilməsi, kitabxana-informasiya infrastrukturunun yaradılması və s. məsələlərin həll olunmasının vacibliyi diqqətə çatdırılmışdır.

Şəhər əhalisinin kitabxana-informasiya təminatı sisteminin təşkilində əhalinin yerləşmə problemi əsasdır. 1 may 2016-cı il tarixli məlumata görə Azərbaycan Respublikasının əhalisi 9705.6 min nəfər olmuş, əhalisinin 90,6%-ni azərbaycanlılar, 9,4%-ni 80-dən çox millətin nümayəndələri təşkil etmişdir.[2]. Respublikanın şəhər əhalisi müstəqillik illərində daha da artmış, urbanizasiya kənddən şəhərə doğru artan istiqamətdə dəyişmişdir. 2016-cı ili götürsək respublikanın şəhər əhalisi 5152.4 min nəfər, 53.1%, kənd əhalisi isə 4553.2 min nəfər 46.9 % olmuşdur[3].

---

[1] Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodiki və təcrübi jurnal. 2008. №2. s. 6-29

[2] http://www.azerbaijans.com/content_464_az.html

[3] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə/Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, 505 s.

“Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın 2.1.8-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2009-cu ilin sentyabr ayının 1-dən 10-na kimi “Kitabxanaların fəaliyyəti haqqında” statistik müayinə keçirmişdir. Statistik müayinə əsasında müəyyən olunmuşdur ki, kütləvi, uşaq, gənclər, elmi, elmi-texniki, digər ixtisaslaşmış, həmçinin müəssisələrin nəzdində olan 8507 kitabxananın 2322-si və ya 27,3%-i şəhər yerlərində, 6185-i və ya 72,7%-i kənd yerlərindədir. Tabeçilik baxımından onların 50,7%-i Təhsil Nazirliyinin, 46,6%-i Mədəniyyət və Turizm Nazirliyinin 2,7%-%i isə digər müəssisələrin nəzdində fəaliyyət göstərir. Azərbaycan kitabxanaların 111,0 milyon nüsxədən ibarət olan fondunun 72,8% şəhər, 27,2% isə kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda, ümumi fondun 32,0%-i Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan kitabxanalardadır[1].

Tədqiqat sahəsi olan Abşeron iqtisadi rayonunda 40 kütləvi kitabaxana fəaliyyət göstərir. Kitabxanaların fondu 866.2 min nüsxədir. Xızı rayonunda 14 kütləvi kitabxana var və fondu 763 min nüsxədir. Abşeron rayonunda 12 kitabxana var və fondu 296.0 min nüsxədir. Sumqayıt şəhərində 14 kütləvi kitabxana var və fondu 563.9 min nüsxədir[2]

Abşeron iqtisadi zonasının ən iri şəhəri Bakı şəhəridir. Son məlumatlara əsaslansaq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2016-ci ildə hazırlanmış “Azərbaycanda təhsil, elm və mədəniyyət” adlı statistik bülletenində qeyd olunur ki, Azərbaycan Respublikasında hazırda 8524 kitabxana fəaliyyət göstərir. Abşeron iqtisadi rayonunda yerləşən Bakı şəhərində 12 Mərkəzləşdirilmiş Kitabxana Sistemi və 717 kitabxana fəaliyyət göstərir[3]. Bakının kütləvi kitabxanalarının sayı 2005-ci ildə 115, 2008-ci ildə 111, 2009-cu ildə 112, 2010-cu ildə 127, 2011-ci ildə 125, 2012-ci ildə 126, 2013-cü ildə 111, 2014-cü ildə 107, 2015-ci ildə 102 olmuşdur. Onlarda kitab fondu, 2005-ci ildə 10295.6, 2006-cı ildə 10052.2, 2007-ci ildə 10024.5, 2008-ci ildə 9925.1, 2009-cu ildə 9881.5, 2009-cu ildə 9881.5, 2010-cu ildə 10484.3, 2011-ci

[1] “Kitabxanaların fəaliyyəti haqqında” statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s. 3

[2] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 405

[3] “Kitabxanaların fəaliyyəti haqqında” statistik müayinənin nəticələri barədə: Statistik bülleten Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s.26

ildə10382.3, 2012-ci ildə 10211,3, 2013-cü ildə 10038.4, 2014-cü ildə 9727.9, 2015-ci ildə 9374.5 min nüsxə olmuşdur[1].

Dissertasiya işinin mövzusuna uygun olaraq elmi-tədqiqat işində M.F.Axundov adına Milli Kitabxana, C.Cabbarlı adına Gənclər Kitabxanası və F.Köçərli adına Uşaq kitabxanasının kitabxana-informasiya fəaliyyəti araşdırmalara cəlb olunur.

Tədqiqata cəlb olunan Gəncə-Qazax iqtisadi rayonunun ərazisinə daxil olan Gəncə şəhərində 102 kitabxana fəaliyyət göstərir. Onlardan 26-i Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxildir və bu sistemə daxil olan kitabxanaların 26,5%-ni təşkil edir[2].

Tədqiqata cəlb olunan Naxçıvan iqtisadi rayonunda 491 kitabxana, respublika üzrə kitabxanaların 5.8%-i fəaliyyət göstərir. Onlardan 94-ü (19.1%-i), respublika üzrə 4.0% şəhər yerlərində, 397-si (80.9%-i), respublika üzrə 6.4% kənd yerlərində fəaliyyət göstərir. Muxtar respublikada 237 kütləvi kitabxana (47.7%-i) Mədəniyyət və Turizm Nazirliyi sistemindədir[3]. Naxçıvan şəhərində fəaliyyət göstərən 49 kitabxananın 14-u (20.4%-i) Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanadır[4]. Hazırda muxtar respublikada 2 muxtar respublika tabeli kitabxana, 8 Mərkəzləşdirilmiş Kitabxana Sistemi fəaliyyət göstərir.[5]

Aparılan araşdırmalara əsasən demək olar ki, üç iqtisadi rayonda cəmi 890 kütləvi kitabxana fəaliyyət göstərir ki, bu da Azərbaycanda fəaliyyət göstərən cəmi 8524 kitabxananın 9.97%-ni, 3242 kütləvi kitabxananın 27.4%-ni təşkil edir. Bu üç iqtisadi rayonda fəaliyyət göstərən kitabxanaların fondu ümumilikdə 16386.3 nüsxə təçkil edir. Bu respublika üzrə kütləvi kitabxanaların fondunun 51.2%-ni təşkil edir. Dövlət Statistika Komitəsinin "Təhsil, elm və mədəniyyət"(2016) statistik bülleteninə əsasən tədqiqat obyekti olan Azərbaycanın iri şəhərlərindən Bakı şəhərində 102 kütləvi kitabxananın fondu 9374.5 nüsxə, Gəncə şəhərində fəaliyyət göstərən 26 kütləvi kitabxananın fondu 404.3 min nüsxə, Naxçıvan şəhərində fəaliyyət göstərən 14 kütləvi kitabxananın fondu 522.9 min nüsxə təşkil edir ki, ümumilikdə bu şəhər kütləvi kitabxanalarının fondu 10301.7

---

[1] www.azstat.org

[2] "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s. 26

[3] "Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 465

[4] Eyni mənbə s. 405

[5] 137. www.nakhchivan.az

min nüsxədir.Göründüyü kimi bu üç iqtisadi rayonun və tədqiqat aparılan üç şəhərin kütləvi kitabxanalarının fondu respublika üzrə kütləvi kitabxanarının fondu ilə müqayisədə yüksək göstəricidir.

Dissertasiya işinin I fəslinin "**Şəhər əhalisinin kitabxana-informasiya təminatının təşkili**" adlanan ikinci yarımfəslində qeyd olunur ki, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" [1] Azərbaycan Respublikası Prezidentinin Sərəncamında (20 aprel, 2007) deyildiyi kimi, Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Azərbaycanda 8524 kitabxana, 150-dən çox nəşriyyat fəaliyyət göstərir.2016-ci ilin məlumatına görə kütləvi kitabxanaların sayı 3242 olmuş, onlardan 462-si şəhər yerlərində, 2780 kitabxana isə kənd yerlərində fəaliyyət göstərmişdir. Kütləvi kitabxanaların informasiya resurslarının sayı hazırda 32.6 min nüsxədir. Fondun 16.1 min nüsxəsi şəhər yerlərində, 16.5 min nüsxəsi kənd yerlərində yerləşir. Bakı şəhərində 102 kütləvi kitabxana fəaliyyət göstərir. Bu respublika kitabxana resurslarının 1,19%-ni təşkil edir. 2009-cu ildə aparılmış statistik müayinənin nəticələrinə görə isə 88 kütləvi kitabxana var idi. Müqayisə etsək Xəzər rayonunda 2009-cu ildə 8, hazırda isə 14 kitabxana, Qaradağ rayonunda 10, hazırda isə 14, Sabunçu rayonunda 15, hazırda isə 14, Səbail rayonunda 7, hazırda isə 10, Yasamal rayonunda 8, hazırda isə 9, Binəqədi rayonunda 8, hazırda da 8, Nəsimi rayonunda 6, hazırda isə 8, Xətai rayonunda 7, hazırda da 7, Nizami rayonunda 7, hazırda isə 6, Suraxanı rayonunda 6, hazırda da 6, Nərimanov rayonunda 6, hazırda isə 4, yeni yaradılmış Pirallahı rayonunda isə 2 yeni kitabxana açılmışdır. Bunu müstəqilliyin verdiyi töhvə və dövlətin bu sahəyə qaygısı kimi dəyərləndirmək olar[2].

Tədqiqat apardığımız Gəncə-Qazax iqtisadi rayonu üzrə 2009-cu il statistik müayinənin nəticələrinə görə 1265 kitabxana var idi. Onlardan 271-i (21.4% -i) şəhər yerlərində, 994-ü (78.6%-i) kənd yerlərində fəaliyyət göstərirdi. İqtisadi rayonda fəaliyyət göstərən kitabxanaların fondu 11773454 nüsxə idi və onun 6303252 nüsxəsi (53,5%-i) şəhər yerlərində, 5470202 nüsxəsi (46.5%-i) kənd yerlərində fəaliyyət göstərən kitabxanalarda idi. Regionda 2009-cu ilə qədər 652 kütləvi kitabxana var idi[3]. 2015-ci ilin statistikasına görə hazırda iqtisadi regionda 511 kütləvi

---

[1] Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respubikası Prezidentinin Sərəncamı//Azərbaycan, 2007, 21 aprel

[2] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 465

[3] Eyni mənbə, s. 412.

kitabxana var. Gəncə şəhərində isə 102 kitabxananın 26-sı (25.5%) Mədəniyyət və Turizm Nazirliyinin nəzdindədir. Gəncə MKS-in kitabxana fondunun ümumi həcmi 2015-ci ilin məlumatına görə 404.3 min üsxədir[1]. Rəqəmləri müqayisə etsək regionda maddi-texniki bazası olmayan 141 kitabxananın bağlandığını söyləmək olar. Region üzrə informasiya resurslarının həcmi hazırda 3988.8 min nüsxə, 2009-cu ilə qədər isə 11773454 nüsxə idi. Rəqəmləri müqayisə etsək region üzrə 7 milyona yaxın öz əhəmiyyətini itirmiş ədəbiyyatın fonddan silindiyini qeyd etmək olar. İnformasiya resurslarının sayı hazırda 404.3 min nüsxədir. 2009-cu ilin statistikasına görə 3658541 nüsxə idi. Rəqəmlərə əsasən Gəncə şəhərində kütləvi kitabxanaların fondunun artdığını söyləmək olar.

Naxçıvan iqtisadi rayonunda fəaliyyət göstərən 237 kütləvi kitabxana bölgələr üzrə aşağıdakı kimi yerləşmişdir. Naxçıvan səhərində 14, Şərur rayonunda 61,Ordubad rayonunda 47, Babək rayonunda 38, Culfa rayonunda 30, Şahbuz rayonunda 29, Kəngərli rayonunda 13, Sədərək rayonunda 5 kütləvi kitabxana vardır[2]. Naxçıvan Muxtar Respublikasında kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Bu resursların 50.2%-i şəhər yerlərində, 49.8%-i isə kənd yaşayış məntəqələrində yerləşləşir[3]. Kütləvi kitabxanaların informasiya resursları 2156.8 min nüxə təşkil edir və Naxçıvan şəhərində 522.9 min, Şərur rayonunda 365.1 min, Babək rayonunda 353.4 min, Culfa rayonunda 308.8, Ordubad rayonunda 295.9 min, Şahbuz rayonunda 198.5 min, Kəngərli rayonunda 80.9 min, Sədərək rayonunda 31.3 min nüsxə olmuşdur.[4] Naxçıvana həsr olunmuş çap məhsulunun tədqiqi və təbliğ olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi yaradılmışdır. Naxçıvanşünaslıq Mərkəzinin Elektron kitabxanasında İnternet və daxili şəbəkə vasitəsilə xidmət göstərilir.Üç dildə hazırlanan www.e-merkez.alimeclis.az İnternet saytı mərkəz ilə səmərəli informasiya mübadiləsi aparmağa imkan verir[5].

---

[1] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 465

[2] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 465

[3] "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s. 50

[4] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 465

[5] www.e-merkez.alimeclis.az

Hazırda Naxçıvan şəhərində 14 kütləvi kitabxananın informasiya resurslarının sayı 522.9 min nüsxədir. Naxçıvan şəhərində dörd kütləvi kitabxananın yaradılması sevindirici haldır. Beləliklə, Bakı, Gəncə və Naxçıvan şəhərlərində yerləşən kütləvi kitabxanaların sayı 142-dir və onların fondu isə 2015-ci ili statistik bülleteninə əsasən 10301.7 nüsxədir. Bu da Azərbaycan Respublikasının Kitabxanalarının ümumi fondunun 31,58%-ni təşkil edir.

Dissertasiya işinin II fəsli **"Şəhər kütləvi kitabxana sistemlərinin informasiya resurslarının yerləşməsi və sahəvi strukturunun təhlili"** adlanır. Fəslin **"Kütləvi kitabxana-informasiya resurslarının ümumi səciyyəsi**" adlanan birinci yarımfəslində qeyd olunur ki, kitabxana-informasiya ehtiyatlarının yerləşdirilməsinə təsir edən əsas amil inzibati-ərazi amili sayılır. Azərbaycan Respublikasında kitabxana-informasiya resurslarının inkişafında iki istiqamət diqqəti cəlb edir. Birincisi, paytaxt və digər şəhərlərdə formalaşmış kitabxana resursları, ikincisi, mərkəzdən uzaq region və digər kiçik yaşayış məntəqələrində formalaşmış kitabxana resursları.[1] Mədəniyyət və Turizm Nazirliyi sisteminə daxil olan kütləvi kitabxanaların son on beş illik dövrünü araşdırsaq aydın olar ki, 2000-ci ildə 4374 kitabxana, onlardan 660-ı şəhər yerlərində, 3714-ü kənd yerlərində fəaliyyət göstərmişdir. İnformasiya resursları 38.7 min nüsxə olmuş, onlardan 19.9 min nüsxə şəhər yerlərində,18.8 min nüsxə kənd yerlərində toplanmışdır. 2005-ci ildə 4004 kütləvi kitabxana, onlardan 624-ü şəhər yerlərində, 3880-nı kənd yerlərində fəaliyyət göstərmişdir. İnformasiya resursları 36.6 min nüsxə olmuş, onlardan 17.9 min nüsxə şəhər yerlərində,18.7 min nüsxə kənd yerlərində toplanmışdır. 2010-cu ildə 3947 kütləvi kitabxana, onlardan 642-si şəhər yerlərində, 3305-i kənd yerlərində fəaliyyət göstərmişdir. İnformasiya resursları 36.1 min nüsxə olmuş, onlardan 17.8 min nüsxə şəhər yerlərində,18.3 min nüsxə kənd yerlərində toplanmışdır. 2013-cu ildə 3320 kütləvi kitabxana, onlardan 495-i şəhər yerlərində, 2825-i kənd yerlərində fəaliyyət göstərmişdir. İnformasiya resursları 33.1 min nüsxə olmuş, onlardan 16.5 min nüsxə şəhər yerlərində,17.0 min nüsxə kənd yerlərində toplanmışdır.2014-cu ildə 3291 kütləvi kitabxana, onlardan 479-u şəhər yerlərində, 2812-si kənd yerlərində fəaliyyət göstərmişdir. İnformasiya resursları 33.2 min nüsxə olmuş, onlardan 16.3 min nüsxə şəhər yerlərində,16.9 min nüsxə kənd yerlərində

---

[1] İsmayılov N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri //Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi- nəzəri və təcrübi jurnal. 1999, №1, s. 8

toplanmışdır. 2015-ci ildə 3242 kütləvi kitabxana, onlardan 462-si şəhər yerlərində, 2780-nı kənd yerlərində fəaliyyət göstərmişdir. İnformasiya resursları 32.6 min nüsxə olmuş, onlardan 16.1 min nüsxə şəhər yerlərində,16.5 min nüsxə kənd yerlərində toplanmışdır [1]. Statistik göstəriciləri təhlil etsək görərik ki, son üç ildə kütləvi kitabxanaların sayı, informasiya resursları və əhalinin hər min nəfərinə düşən çap məhsulunun sayı azalmaya doğru gedir. Bu bir tərəfdən fondlardan əhəmiyyətini itirmiş çap məhsullarınun çıxarılması ilə bağlı olsa da, digər tərəfdən maliyyə çatışmazlığına görə fodların düzgün komplektləşdirilməməsindən asılıdır. 2016-cı ilin statistik məlumatına görə 2014-cü ildə oxucuların sayı 2677 min nəfər olmuş, onlardan 1474 min nəfər şəhər yerlərində, 1203 min nəfər kənd yerlərində kitabxanaya müraciər etmişdir. 2015-ci ildə isə oxucuların sayı 2607 min nəfər olmuş, onlardan 1471min nəfəri şəhər yerlərində,1136 nəfəri kənd yerlərində kitabxanaya müraciət etmişlər[2]. Kütləvi kitabxana şəbəkəsinin böyük bir qismi Azərbaycanın regionlarında yerləşir. Bu gün Azərbaycanın təkcə iri şəhərləri deyil, bütün regionları sürətli inkişaf etməkdədir. Azərbaycan Respublikasının paytaxtı olan Bakı şəhəri kitabxana mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Məlumdur ki, Bakı şəhəri 12 rayon və 61 qəsəbədən ibarətdir. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər planının 2.1.5 maddəsinə uyğun olaraq 05 yanvar 2011-ci il tarixində Bakı şəhərinin 9 rayonunda MKS yaradılmışdır. Bakı şəhəri üzrə kütləvi kitabxanaların informasiya resurslarının sayı 9374.5 min nüsxədir. Bu respublika üzrə ümumi fondun 29.8%-ni, şəhər yerlərində yerləşən kitabxanaların 68.5%-ni təşkil edir. Ölkənin informasiya resurslarının 49,8%-i, başqa sözlə təxminən yarısı Bakı şəhə rində yerləşir.

Tədqiqat apardığımız Gəncə-Qazax iqtisadi rayonunda kitabxana-informasiya resurslarının həcmi 11773454 nüsxədir. Onlardan 6303252 nüsxə (53.5%-i) şəhər yerlərində, 5470202 nüsxə (46,5%-i) kənd yerlərində yerləşir. Gəncə şəhərində isə kitabxanaların fondu 3658541 nüsxə, ümumi fondun 3.2%-i, şəhər yerlərində yerləşən fondun 4.5%-ni təşkil edir. Gəncə MKS-in kitab fondu-401825 nüsxə təşkil edir. Kitabxananın oxucularının ümumi sayı-60437 nəfər, oxucu gəlişi-225067

---

[1] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 412.

[2] Eyni mənbə, s. 411.

nəfər, kitab verilişi isə 1170738 nüsxədir[1] 1976-ci ildən Mərkəzləşdirilmiş Kitabxana Sistemi kimi fəaliyyət göstərən Gəncə Şəhər MKS-in 25 filialından 60437 nəfər oxucu istifadə edir. Oxucu gəlişi 225067 nəfər, kitab verilişi 1170738 nüsxədir. Gəncədə kitabxanada işləyənlərin ümumi sayı 139 nəfərdir. Onlardan 100 nəfəri mütəxəssisdir. Ali-ixtisas təhsilli kitabxanaçılar 11 nəfər, ali qeyri-ixtisas təhsilli kitabxanaçılar 35 nəfər, orta-ixtisas təhsilli kitabxanaçılar 14 nəfər, orta qeyri-ixtisas təhsilli 14 nəfər, orta təhsilli kitabxanaçılar 25 nəfərdir. Onu da qeyd etmək lazımdır ki, Gəncə şəhəri çoxmillətli şəhərdir. Burada yaşayan müxtəlif millətlərin nümayəndələrinin də informasiya tələbatı müxtəlifdir.

Naxçıvan iqtisadi rayonda kütləvi kitabxanalar və informasiya resursları inzibati rayonlar üzrə aşağıdakı kimi yerləşmişdir: 1.Naxçıvan şəhəri-14 kitabxana-522.9 min nüsxə; 2. Şərur rayonu-61 kitabxana-365.1 min nüsxə;3.Ordubad rayonu-47 kitabxana-295.9 min nüsxə;4.Babək rayonu-38 kitabxana-353.4 min nüsxə;5.Culfa rayonu-30 kitabxana-308.8 min nüsxə;6.Şahbuz rayonu-29 kitabxana-198.5 min nüsxə;7.Kəngərli rayonu-13 kitabxana-80.9 min nüsxə; 8.Sədərək rayonu-5 kitabxana -31.5 min nüsxədir [2]. Muxtar respublikada fəaliyyət göstərən kütləvi kitabxanaların 2000-2016-ci illər üzrə sayı, onlarda olan kitab fondu, orta hesabla hər 1000 nəfərə düşən nüsxələrin sayında müxtəliflik nəzərə çarpır. Belə ki, kütləvi kitabxanaların sayı 2000-ci ildə 293 idisə, bu rəqəm 2009-cu ildə 235, 2016-ci ildə 237 olmuşdur. Eyni zamanda bu kitabxanaların kitab fondunda da azalma müşahidə olunmuşdur. Əgər 2000-ci ildə kitab fondunda 2409.8 min nüsxə idisə, 2009-cu ildə bu rəqəm 2144.7 min nüsxə təşkil etmiş, 2016-cı ildə 2156.8 min nüsxə təşkil edir. İqtisadi rayonda kitabxanalarının sayına görə birinci yerdə Şərur rayonudur. Belə ki, burada 61 kütləvi kitabxana oxuculara xidmət göstərir. Bu kitabxanalardan 6-sı (9.8%-i) şəhər yerlərində, 55 (90.1%-i) isə kənd yerlərində yerləşir. Kitabxanalarının sayına görə ikinci yerdə Ordubad rayonu durur. Burada fəaliyyət göstərən kütləvi kitabxanaların sayı 47-dir. 10-u (21.2%-i) şəhər, 37-si (78.7%-i) kənd yerlərindədir. Babək rayonunda 38 kütləvi kitabxanadan 4-ü (5.1%-i) şəhər, 34-ü (89.4%-i) kənd yerlərində yerləşir. Culfa rayonunda 30 kütləvi kitbxanadan 9-u (30.0%-i) şəhər, 21-i (70.0%-i) kənd yerlərindədir. Şahbuz rayonunda 5-i (7.2%-i) şəhər, 24-ü (82.7%-i) kənd yerlərində olmaqla 29 kitabxana oxuculara xidmət göstərir. Naxçıvan

[1] http://gencekitab.az/

[2] Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten/Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s.47 .

şəhərində fəaliyyət göstərən 14 kütləvi kitabxanaların hamısı şəhər yerindədir. Kəngərli rayonunda 13 kütləvi kitabxanadan 6-sı (46.1%-i) şəhər, 7-si (53.8%-i) isə kənd yerlərində fəaliyyət göstərir. Sədərək rayonununda cəmi 5 kütləvi kitabxanadan 2-i (40%-i) şəhər, 3-ü (60%-i) kənd yerlərindədir. Naxçıvan iqtisadi rayonunun kitabxanaları ölkə kitabxana resursların 5,8%-ni təşkil edir. Kitabxanaların ümumi informasiya resursları 4696103 nüsxə təşkil edir. Bu resursların 50.2%-i şəhər yerlərində, 49.8%-i isə kənd yaşayış məntəqələrində yerləşir. Naxçıvan şəhərində isə informasiya resurslarının həcmi 1237019 nüsxədir. Bu resuraların 1237019 nüsxəsi, yəni 100%-i də şəhər yerlərində yerləşir[1] Naxçıvan iqtisadi rayonun ən böyük kitabxanası olan M.S.Ordubadi adına Naxçıvan Dövlət Kitabxanası 2007-ci ildə əsaslı təmir olunmuş, kitabxana internetə qoşulmuş, avtomatlaşdırılmaya başlanmışdır. Fondunda 320 minə yaxın kitab və jurnal vardır. Kitabxanada oxucuların sayı 21150 nəfərdir. Kitabxana fondunda 2090 nüsxə biblioqrafik vəsait, məlumat nəşri mövcuddur. İl ərzində kitabxanada ümumi kitab verilişi təxminən 445807 nüsxə olmuşdur. A.Babayev adına Naxçı van MR Uşaq Kitabxanası Naxçıvan şəhər uşaq kitabxanası əsasında 1960-cı ildə yaradılmışdır. Uşaq kitabxanası 10683 oxucuya xidmət göstərir. Kitabxanaya 1965-ci ildə şair Adil Babayevin adı verilmişdir. A.Babayev adına Uşaq kitabxanasının fondunda 159933 ədəbiyyat vardır ki, bunların da 11027 ədədi latın qrafikalıdır[2] .

Dissertasiya işinin II fəslinin "**Azərbaycanın iri şəhərlərində elektron informasiya resurslarının yaradılması və istifadəsi problemi**" adlanan ikinci yarımfəslində qeyd olunur ki, elektron informasiya resursları müxtəlif sosial qurumlar, o cümlədən ənənəvi kitabxanalar tərəfindən yaradılan və şəbəkə xidməti imkanlarını genişləndirən superaçıq informasiya sistemləridir. Elektron informasiya resurslarının yaradılması bu gün bütün dünyada tətbiq olunan və müasir kitabxana-informasiya texnologiyasının əsasını təşkil edən UNIMARC formatı əsasında həyata keçirilir.[3] Maşınla oxunan UNIMARC formatı biblioqrafik yazıların kodlaşmış formada hazırlanmasını təmin edir. Azərbaycan Respublikasının və Bakı şəhərinin ən iri kitabxanalarından olan M.F.Axundov adına Milli Kitabxanada yeni informasiya texnologiyalarının tətbiqinə 1999-cu ildən baş-

---

[1] Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten/Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s.47 .

[2] www.nakhchivan.az

[3] Армс В. Элекронные библиотеки. Перев. с английского. Москва, 2002, с. 11.

lanmış və 2000-ci ildə kitabxanada İnternet zalı istifadəyə verilmişdir. 2001-ci ildə kitabxanada Tədris Mərkəzi yaradılmışdır. 2003-cü ildən kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanmışdır. Sistemin proqram təminatı ABŞ-ın VTLS-kitabxanalar üçün xüsusi avtomatlaşdırılmış proqramlar işləyən təşkilatlar tərəfindən həyata keçirilmişdir [1]. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə xüsusi ALİSA proqramı işlənib hazırlanmışdır və bu ilk milli proqramın tətbiqi ilə əlaqədar olaraq kadrların hazırlanması məqsədilə Milli Kitabxanada "Kitabxanalarda informasiya texnologiyaları infrastrukturunun təkmilləşdirilməsi" proqramı çərçivəsində "ALİSA Vahid Kitabxana İdarəetmə Sistemi və MARC-21" mövzusunda 10 günlük treninqlər təşkil olunmuşdur. Lakin ölkəmizdə elektron informasiya resurslarının, Azərbaycanın toplu kataloqunun yaradılması prosesinin ləngiməsi onun tətbiqi imkanlarını xeyli çətinləşdirir.

Dissertasiya işinin III fəsli "**Oxuculara kitabxana-informasiya xidmətinin müasir vəziyyəti"** adlanır. Fəslin "**Kütləvi kitabxana şəbəkəsinin kadr təminatı**" adlanan birinci yarımfəslində qeyd olunur ki, 2009-cu ilin statistik müayinənin nəticələrinə gorə müəyyən olunmuşdur ki, Azərbaycan Respublikasında kitabxana kadrlarının ümumi sayı 12729 nəfərdir. Onların 45,7%-i şəhərlərdə, 54,3%-i isə kənd yaşayış məntəqələrində çalışır. Ümumi yekuna görə, bu kadrların 8727(68,6%) nəfəri mütəxəssisdir. Mütəxəssislərin 52,7%-i şəhər, 47,3%-i isə kənd kitabxanalarında əhalinin informasiya təminatını həyata keçirir. Respublikada fəaliyyət göstərən kitabxana mütəxəssisindən 1579 nəfəri (18,1%) ali-ixtisas təhsilli, 1318 nəfər (15,1%) ali qeyri-ixtisas təhsilli, 1767 nəfər (20,2%) orta-ixtisas təhsilli, 1261 nəfər (14,4%) orta qeyri-ixtisas təhsilli, 2802 nəfər (32,2%) ümumi orta təhsilli işçilərdir[2].

Respublika Statistika Komitəsinin 2016-cı il məlumatına görə isə respublikamızın kitabxanalarında 8524 nəfər kitabxanaçı mütəxəssis çalışır. Bu kitabxanaçıların 3836 nəfəri (45.0%) şəhər yerlərində, 4688 nəfəri nəfəri (54.9%-i) kənd yerlərində çalışır. 8524 nəfər kitabxanaçının 18.5%-i ali-ixtisas təhsilli, 13.4%-i ali qeyri-ixtisas təhsilli, 28.2%-i orta-ixtisas təhsilli kitabxanaçılardır. 4338 kitabxanaçı kənd yerlərində fəaliyyət

[1] http://anl.az/tarix.php
[2] Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, s.75 .

göstərir ki, onların 3.4%-i ali-ixtisas təhsilli, 5.3%-i ali qeyri-ixtisas təhsilli, 24.7%-i orta-ixtisas təhsilli kitabxanaçılardır[1].

Respublika üzrə kitabxanaçı mütəxəssislərin 36.1%-i, yəni 3158 nəfər kitabxanaçı Bakı şəhərində çalışır. Onlardan 37,6%-i, başqa sözlə 1186 nəfəri ali-ixtisas təhsilli kadrlardır. Bu da respublikanın orta göstəricisindən təqribən 2 dəfədən də yüksəkdir. Bakı şəhərinin inzibati rayonları üzrə ali-ixtisas təhsilli kitabxanaçı kadrların yerləşməsinin araşdırılması göstərir ki, Bakının Səbail rayonunda çalışan kitabxana işçilərinin yarıdan çoxu, 424 nəfəri (53.3%-i) ali-ixtisas təhsillidir. Ən az ali-ixtisas təhsilli kitabxanaçının çalışdığı rayon isə Qaradağ rayonudur. Orada cəmi 12 nəfər (13.3%) ali-ixtisas təhsilli kitabxanaçı çalışır. Bakı şəhərinin bu rayonunun kitabxanalarının ali təhsilli kadrlarla təminatı barədə Mədəniyyət və Turizm Nazirliyi qarşısında məsələ qaldırmaq lazımdır.

Aparılan araşdırmalara əsasən qeyd edə bilərik ki, Azərbaycan Respublikasının iri şəhərlərindən Bakı, Gəncə və Naxçıvan şəhərlərində 3290 nəfər kitabxanaçı çalışır. Onlardan 1205 nəfəri (36.7%-i) ali ixtisas təhsilli, 803 nəfəri (24.4%-i) ali qeyri-ixtisas təhsilli, 686 nəfəri (21%-i) orta-ixtisas təhsilli, 322 nəfəri (9.8%-i) orta qeyri-ixtisas təhsilli, 274 nəfəri (8.3%-i) ümumi orta təhsillidir.

Dissertasiya işinin III fəslinin ikinci yarımfəsli **“Tələbatçıların informasiya təminatının müqayisəli təhlili” adlanır.** Yarımfəsildə qeyd olunur ki, ölkədə kitabxana işinin yaxşılaşdırılması haqqında qəbul edilən qərarların icrası bu sahənin inkişafında ciddi dönüş yaratmışdır. “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə “Dövlət Proqramı”nın[2] 1.2.bəndində göstərildiyi kimi “Əhalinin bütün təbəqələrinə kitabxana-informasiya xidməti səviyyəsinin yüksəldilməsi” istiqamətində mühüm işlər görülməlidir. “AZLİBNET” vasitəsilə respublikada mövcud olan elektron resursların fasiləsiz və uzaq məsafədən idarə edilməsi sistemi yaradılmışdır. Toplu kataloqdan www.azlibnet.az saytı vasitəsilə istifadə etmək olar[3]. Tədqiqata cəlb olunan Bakı, Gəncə, Naxçıvan şəhərlərinin Mərkəzləşdirilmiş

[1] Azərbaycanda təhsil, elm və mədəniyyət: Statistik məcmuə//Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2016, s. 412.

[2] Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı//Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri,metodiki və təcrübi jurnal. 2008. №2. s.6-29.

[3] www.azlibnet.az

Kitabxana Sistemlərində istifadəçilərin kitabxana-informasiya təminatı aşağıdakı ideya istiqamətləri üzrə həyata keçirilmişdir:1.Vətənpərvərlik tərbiyəsi və diyarşünaslıq ədəbiyyatının təbliği. 2. Əxlaq tərbiyəsi**.** 3. Hüquq tərbiyəsi. 4. Əmək tərbiyəsi**.** 5. Estetik tərbiyə və bədii zövqün aşılanması. 6. Fiziki tərbiyə. 7. Ekoloji tərbiyə. Bakı, Gəncə, Naxçıvan şəhərləri MKS-lərində kitabxana-informasiya xidmətini müasir tələblər səviyyəsində təşkil etmək üçün informasiya-kommunikasiya texnologiyaları sahəsində müxtəlif layihələr həyata keçirilir. Bakı, Gəncə, Naxçıvan şəhər MKS-lərinin "Oxuculara xidmət şöbə"lərində tələbatı öyrənmək məqsədilə "Oxucu sorğusu" adlı xüsusi blanklar hazırlanır, kitabxanalar haqqında bukletlər, kitabxanaların yerini, iş vaxtını bildirən vərəqələr, yaddaşlar yayılır. İnformasiya-resurs şöbələri MKS-lərin veb-saytında informasiyaları tənzimləyir, informasiyanın yerləşdirilməsi, qruplaşdırılması işlərini yerinə yetirməklə məlumat bazasını təkmilləşdirir,veb-saytı yeni materiallarla zənginləşdirir, fotosessiyaları, slaydları işləyib hazırlamaqla məşğul olur, keçirilən tədbirlər, görülən işlər haqqında ictimaiyyəti məlumatlandırır. Bakı,Gəncə, Naxçıvan şəhər MKS-lərində oxuculara xidmətlə bağlı müxtəlif linklər vardır. İnformasiyalaşdırılmış vətəndaş cəmiyyəti gələcək kitabxanaları yalnız müxtəlif növ çap məhsulların saxlayıcısı kimi yox, həm ənənəvi, həm də avtomatlaşdırılmış xidmət komponentlərini özündə cəmləşdirməklə oxuculara lokal və online (uzaq məsafədən) rejimdə xidmət göstərə bilən informasiya müəssisəsi kimi görmək istəyir[1]. Müasir dövrdə informasiyanın sürətlə artması və sürətlə köhnəlməsi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq xidmət göstərilməsini tələb edir.Bu istiqamətdə tədqiqat apardığımız şəhər kitabxanalarında mühüm işlər görülür.

III fəslin "**Şəhər əhalisinə kitabxana xidmətinin təkmilləşdirilməsi yolları**"adlanan üçüncü yarımfəslində qeyd olunur ki**,** Azərbaycan Respublikası Prezidentinin kitabxana, informasiya, mədəniyyət və incəsənət sahələrinin inkişafı ilə bağlı son illər qəbul etdiyi çoxsaylı fərman və sərəncamları əldə rəhbər tutularaq bu sahələrin inkişafı və yenidən qurulması sahəsində konkret tədbirlər görülür. Kitabxana fondlarının zənginləşdirilməsi,vahid informasiya sahəsinə daxil olan MKS-lərin veb-saytlarının təkmilləşdirilməsi, elektron kataloq və elektron kitabxanaların təşkili, məlumat bazalarının yaradılması və virtual məkanda yerləşdirilməsi, virtual xidmət, virtual metodiki xidmət həyata keçirilir. Oxucuların

---

[1] Бекренева, Т.А. Электронный каталог ГПНТБ СО ран в развитии // Библиография. 2001. №2, с. 53.

yüksək mədəni səviyyədə qarşılanması və xidmət göstərilməsi əhəmiyyətli məsələlərdən biridir. Azərbaycan əhalisinə kitabxana-informasiya xidmətinin səviyyəsini yüksəltmək məqsədilə yeni dövlət proqramının qəbuluna hazırlıq gedir. Hər bir kitabxana filialında multimedia mütəxəssisi ştatı yaradılmışdır. Tədqiqata cəlb olumuş Bakı şəhərində yeni yaradılan Milli Kitabxana-İnformasiya Mərkəzinin məqsədi Azərbaycan kitabxanalarının birgə milli kataloqlaşdırma sistemini yaratmaqdır. Dünyanın ən qabaqcıl kitabxana sistemlərinin təcrübələrindən faydalanaraq yaradılan ALİSA axtarış sisteminin əsas vəzifəsi Azərbaycanda pərakəndə halda fəaliyyət göstərən kitabxana sistemləri arasında inteqrasiya, Azərbaycanda kitabxana sisteminin inkişafını müasir standartlara uyğunlaşdırmaq və milli kitabxanaların dünya kitabxana sisteminə inteqrasiyasını həyata keçirməkdən ibarətdir. Azərbaycanda elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsi, "Azərbaycanın kitab abidələri" dövlət reyestrinin hazırlanması, milli informasiya resurslarının elektron daşıyıcılara köçürülməsi kimi çoxsaylı tədbirlər davam etdirilir. Hazırkı dövrdə Bakı, Gəncə, Naxçıvan şəhərlərinin kütləvi kitabxanalarında yeni informasiya texnologiyalarının tətbiqi sürətlənmiş, istifadəçilərə həm ənənəvi, həm də virtual xidmətin səviyyəsi yüksəlmişdir.

Dissertasiya işinin "**Nəticə**" elmi-tədqiqat işi yekunlaşdırılır, bir sıra təkliflər və tövsiyələr verilir. Aşağıdakı təklif və tövsiyələri həyata keçirməklə Bakı, Gəncə, Naxçıvan şəhərlərində fəaliyyət göstərən kitabxanaların yaxın gələcəkdə kitabxana-informasiya fəaliyyətinin yenilənməsi mümkündür.

1.Bakı, Gəncə, Naxçıvan şəhərlərində kitabxana-informasiya müəssisələrinin yerləşdirilməsində təbii şərait, əhalinin yerləşmə vəziyyəti, dövlət və ictimai yanaşma nəzərə alınmalıdır.

2.Yenidən yaradılan, açılan və bağlanan hər bir kitabxanaya vahid respublika kitabxana-informasiya sisteminin tərkib hissəsi kimi baxılmalı,ölkənin başqa kitabxana-informasiya sistemləri ilə uyğunluğu nəzərə alınmalıdır.

3.Bakı, Gəncə, Naxçıvan şəhərlərində kitabxana-informasiya müəssisələrinin yerləşdirilməsində sosial-iqtisadi amillər, demoqrafik faktorlar, tarixi ənənələr nəzərə alınmalıdır.

4.Ölkədə baş verən bütün sosial-iqtisadi faktorlar, demokratik dəyişikliklər kitabxana-biblioqrafiya işində öz əksini tapmalıdır.

5.Bakı, Gəncə, Naxçıvan şəhərlərinin kütləvi kiabxanalarına daxil olan yeni ədəbiyyatın təbliği məqsədilə, cari biblioqrafik göstəricilərin hazırlanması ilə yanaşı, İnternet imkanlarından istifadə edilməklə tələbatçılara operativ çatdırılması təmin edimәlidir.

6.Kitabxanalara daxil olan yeni ədəbiyyatın təbliğində e-mail adreslərindən, kitabxanaların saytlarından, bukletlərdən, informasiya bülletenlərindən geniş istifadə edilməlidir.

7.Tədqiqat aparılan şəhərlərin kitabxanalarında Azərbaycanın tarixi, müxtəlif elm sahələri, dili, ədəbiyyatı və incəsənəti, müasir sosial-iqtisadi və siyasi həyatı, müstəqil Azərbaycan dövlətinin yaranması, tarixi və müasir vəziyyəti, cəmiyyətdə demokratikləşmə və iqtisadi islahatlar, Dağlıq Qarabağ problemi, Azərbaycanın ayrı-ayrı ərazilərinin tarixi, ekologiya və ətraf mühit və s. sahələrdə retrospektiv xarakterli elmi-köməkçi göstəricilərin tərtibi və məlumat bazalarının yaradılması və virtual məkanda yerləşdirilməsi qarşıda duran mühüm məsələdir.

8.Regional kitabxanalarda əlamətdar tarixi günlərlə bağlı xüsusi biblioqrafiyanın mühüm sahəsi olan tövsiyə biblioqrafiyasının imkanlarından geniş istifadə edilməlidir.

9.Kitabxana-informasiya xidmətinin səviyyəsi kökündən yeniləşməli, istifadəçilərin təlabatı dərindən öyrənilməli, təsnifləşdirilməli, fərdi xidmətin və virtual xidmətin imkanlarında istifadə edilməlidir.

10.Bakı,Gəncə,Naxçıvan şəhərlərinin kütləvi kitabxanalarının elmi-tədqiqat işlərinin səviyyəsi yüksəldilməli, yeni tipli kadrların hazırlanması istiqamətində fəsiləsiz təhsil və ali təhsil sistemindən istifadə edilməlidir.

11.Kitabxanalarda kitabxana, informasiya və biblioqrak proseslərin avtomatlaşdırılması məsələsinə diqqət artırılmalı, fondların retromassiv hissəsinin elektron kataloqa daxil edilməsi üzərində iş sürətləndirilməlidir.

12.Bakı, Gəncə, Naxçıvan iqtisadi rayonlarında yerləşən kitabxanaların kitabxana-informasiya fəaliyyətinin modernləşdirilməsi və müasir tələblər səviyyəsinə qaldırılması məqsədilə dərin peşə biliklərinə yiyələnmiş yeni kitabxanaçı-informator nəslinin formalaşmasına diqqəti artırmaq vacibdir.

13.Müasir şəraitdə kitabxana-informasiya resurslarının inkişafı, yerləşdirilməsi, kitabxanaların müxtəlif idarələrin tabeliyində olması, bütün idarələrdə kitabxana müəssisələrinin yerləşdirilməsinə dair normativ-texniki sənədlərin olmaması, kitabxana şəbəkələrini inkişafdan saxlayan əsas faktordur.

14.Bakı, Gəncə, Naxçıvan şəhərlərində və iqtisadi regionlarda mövcud olan problemlərdən asılı olaraq informasiya resurslarının elm

sahələri üzrə komplektləşməsinin səviyyəsini təyin etmək və fondlarda elmi ədəbiyyatın çəkisini artırmaq lazımdır.

15.Respublikanın iri şəhərlərində kitabxana-biblioqrafik proseslərin yerinə yetirilməsinin yeni normativlərini yaratmaq və informasiya təminatında balans pozuntusunu və qeyri-mütənasibliyi aradan qaldırmaq lazımdır.

16.Azərbaycan respublikasında ali-ixtisas təhsilli kitabxanaçıların xüsusi çəkisini artırmaq məqsədilə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin məzunlarının təyinatla yerlərə göndərilməsi üçün Azərbaycan Respublikası Təhsil Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi qarşısında məsələ qaldırmaq lazımdır.

Ümid etmək olar ki, bütün bu tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Bakı, Gəncə, Naxçıvan şəhərlərində kitabxana-informasiya resurslarının daha sürətlə inkişafına, kitabxana-informasiya və biblioqrafiya xidmətinin səviyyəsinin yüksəlməsinə, mövcud resurslardan səmərəli istifadə olunmasına imkan yaradacaqdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır**


1. Quliyev O.İ. Müasir informasiyalaşdırma cəmiyyətində elektron kataloqun tətbiqinin əhəmiyyəti: Məqalə//Kitabxanaşünaslıq və biblioqrafiya:Elmi-nəzəri, metodik və təcrübi jurnal, 2008, №2, s. 119-124

2. Гулиев О.И. Модернизация деятельности библиотек на основе современных технологий: Tezis/Формирование специалиста в условиях региона новые подходы:Материалы IX Всероссийской межвузовской научной конференции. Часть I. 18 ноября 2009 года. г. Тамбов, 2009, s.118-124

3. Quliyev O.İ. Müasir şəraitdə Xətai rayon MKS-in fəaliyyəti: Məqalə/Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. 2010, №1, s. 22-27

4.Гулиев О.И. Расположение и кадровое обеспечение библиотечных ресурсов города Баку: Məqalə//Составитель: Л.А. Мамедова//Библиотеки-как ресурс национально-культурного возрождения.Баку: Нурлар,2011,С.417-430

5. Quliyev O.İ. Bakı şəhərində kitabxana resurslarının yerləşməsi və onun kadr təminatının müasir vəziyyəti: Məqalə//Kitabxanalar milli mədəniyyətin dirçəliş resursudur. Bakı: “Nurlar”, 2011, s. 400-416

6. Quliyev O.İ Bakı şəhərinin kitabxana infrastrukturunun müasir vəziyyəti (Binəqədi rayonunun nümunəsində): Tezis/Kitabxanaçılıq-

informasiya” fakültəsinin yaranmasının 65 illiyinə həsr olunmuş “Kitabxana-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri” mövzusunda gənc tədqiqatçıların Respublika elmi konfransının Tezisləri. 18 may 2012, 2012, s. 35-37

7.Quliyev O.İ. Bakı şəhəri kitabxana infrastrukturunun müasir vəziyyəti (Səbail və Binəqədi rayonları nümunəsində): Məqalə//Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. 2012, № 1 (30), s. 96-108

8.Quliyev O.İ. Naxçıvan şəhər əhalisinin kitabxana-informasiya təminatı sistemi: Tezis/Ümumilli lider H.Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş “Heydər Əliyev irsində kitab və kitabxana məsələləri” mövzusunda Respublika Elmi Konfransının Tezisləri. 02 may 2013-cü il,2013, s. 61-63

9.Quliyev O İ. Bakı şəhərində elmi müəssisə kitabxanalarının yerləşməsi vəziyyəti: Tezis /BDU-nun 95 illiyinə həsr olunmuş Kitabxana-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri mövzusunda Respublika Elmi Konfransının Materialları. 25 dekabr 2014-cü il. Bakı, s. 97-99

10.Quliyev O.İ. Azərbaycan Respublikasının Bakı,Gəncə,Naxçıvan şəhər əhalisinin kitabxana-informasiya təminatı sisteminin infrastrukturu: Məqalə// Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. 2015,№2, s.73-84

11.Quliyev O.İ. Bakı şəhərində kitabxana-informasiya resurslarının yerləşməsi və sahəvi strukturunun təhlili (I məqalə): Məqalə// Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri, metodik və təcrübi jurnal.2016, №1, s. 96-105

12.Проблема создания электронных каталогов в библиотеках Азербайджанской Республики в современном информационном обществе/ Гуманитарный трактат. XIII вып. 17.02.2017 s. 23-27, (http: gumtraktat. ru/wp cont ent/up).

**Орудж Ислам оглы Кулиев**

**“Библиотечно-информационное обслуживание городского населения в Азербайджанской Республике в годы независимости” (Основываясь на опыте публичных библиотек в Баку, Гяндже и Нахчыване)”**

РЕЗЮМЕ

Данная диссертация имеет название **«Библиотечно-информационные обслуживание для городского населения Азербайджанской Республики в годы независимости (на основе опыта работы Бакинской Гянджинской, Нахичеванской библиотек)**. Диссертация состоит из введения, трёх глав, семи частей, вывода, списка использованной литературы и добавок. В введении диссертации обосновывается актуальность данной темы.

Первая глава называется **«Современное состояние обеспечения библиотечно-информационные услуг для городского населения»** и состоит из двух частей. В первой части диссертации исследуются библиотечно-информационные ресурсы в трёх существующих регионах. Во второй части диссертации отдельному исследованию подвергаются библиотеки города Баку, Гянджи и Нахичевани, а также проводится деление по административным районам.

Вторая глава диссертации называется **«Организация системы информационных ресурсов городских массовых библиотек и их исследование структуры частей»**. В первой части второй главы проводится сравнительный анализ библиотечных ресурсов существующих библиотек городе Баку, Гянджа и Нахичевань. Во второй части главы даётся информация о последних исследованиях, проводимых на основе создания электронных ресурсов в городе Б

Третья глава называется **«Современное положение библиотечно-информационных услуг, предоставляемых читателям».** В первой части диссертации к исследованию привлекаются потенциал кадров изучаемых библиотек. Во второй части главы исследуются проблемы услуг для читателей в центральных библиотеках. В третьей части главы даётся информация о формировании электронных информационных фондов и видов виртуальных услуг в Азербайджане.

В выводе диссертации обобщаются полученные научные выводы, а также даются значительные советы и рекомендации.

**Oruj Islam oglu Guliyev**

**Library and information services for the population of the Republic of Azerbaijan in the years of independence (based on the experience of the Baku Ganja, Nakhchivan libraries).**

SUMMARY

This thesis is entitled **"Library and information services for the population of the Republic of Azerbaijan in the years of independence (based on the experience of the Baku Ganja, Nakhichevan libraries)".** The dissertation consists of an introduction, three chapters, seven parts, an output, a list of used literature and additives. In the introduction of the dissertation, the relevance of this topic is substantiated.

The first chapter is called **"The current state of providing library and information services for the urban population"** and consists of two parts. The first part of the thesis examines the library and information resources in the three existing regions. In the second part of the dissertation, the libraries of the city of Baku, Ganja and Nakhichevan are subjected to a separate study, and the division into administrative regions is conducted.

The second chapter of the thesis is called **"Organization of a system of information resources of urban mass libraries and their study of the structure of parts".** The first part of the second chapter compares the library resources of existing libraries in Baku, Ganja and Nakhichevan. The second part of the chapter gives information on the latest research conducted on the basis of the creation of electronic resources in the city of B

The third chapter is called **"The Current Situation of Library and Information Services Provided to Readers".** In the first part of the thesis, the potential of the staff of the libraries under study is attracted to research. The second part of the chapter explores the problems of services for readers in central libraries. The third part of the chapter gives information on the formation of electronic information funds and types of virtual services in Azerbaijan.

The conclusion of the thesis summarizes the scientific conclusions obtained, as well as gives significant advice and recommendations.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə
----------------------------------------------------
AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ имени МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**ОРУДЖ ИСЛАМ оглы КУЛИЕВ**

# "БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЕ ОБСЛУЖИВАНИЕ ГОРОДСКОГО НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ" (Основываясь на опыте публичных библиотек в Баку, Гяндже и Нахчыване)"

3356.01 – Библиотековедение, библиографоведение и книговедение

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ-2018**